# Dayandur Sevgin – 60

## HƏZRƏTİ PEYĞƏMBƏRİN

Allah Rəsul göndərdi onu müsəlmanlara,
Söylədi son qoyacaq O, tökülən qanlara,
O da yolu göstərdi yol gəzən insanlara,
Hədislərdə yazıldı hikməti PEYĞƏMBƏRİN.

Göndərdiyi kitabın müqəddəsdi hər biri,
Göndərən Allah oldu hər duası, zikiri,
İnsanları düz yola çəkmək idi fikiri,
Haqqı göstərmək idi niyyəti  PEYĞƏMBƏRİN.

Yolun azdı  bir insan əgər ki, səhv eylədi,
Ona düz yol göstərib, səhvini əfv eylədi,
Tək ALLAHA sığınıb bütləri məhv eylədi,
Bu dünyaya yayıldı şöhrəti PEYĞƏMBƏRİN.

Analara müqəddəs, qadına mələk dedi,
Düz yolu seçənlərə can dedi, ürək dedi,
Quranda yazılana eyləməyin şəkk dedi,
Həqiqətə bayraqdı siqləti PEYĞƏMBƏRİN.

Cəhalət aləmində yol göstərən mayakdı,
Ruhu müsəlmanların başı üstə oyaqdı,
Ümidsizə ümiddi, tək  olana dayaqdı,
Xəstələrə şəfadı şəfqəti  PEYĞƏMBƏRİN.

Saf  ürəklə yapdığı əməlləri gül açdı,
Allaha tapınana qucaq açdı, qol açdı,
Mədinədən Məkkəyə pozulmayan yol açdı,
İslamın tarixidi Hicrəti PEYĞƏMBƏRİN.

Hər fəsildə, hər ayda, dəqiqədə, andadı,
Ruhdadı, nəfəsdədi, ürəkdədi, qandadı,
Bu can bizimki deyil, MƏHƏMMƏDİM candadı,
Könüllərdi məskəni Həzrəti PEYĞƏMBƏRİN.

Sevgin, bu şeiri yazan gərək ilhama gələ,
Oxuyub, eşidənin ağzı bir tama gələ,
Min təriqət yarana, min-bir ülamə gələ,
İslamın haqq yoludu şəryyəti PEYĞƏMBƏRİN.

## NİZAMİ

*Nizamı Gəncəvinin 870 illik yubileyinə*

Gəncəyə gəlmişik,  ulu Gəncəyə,
Adı bir çəkilir Gəncə, Nizami.
Dünyada nə qədər şeir yazan var,
Başda dayanıbdı öncə Nizami.

Hikmət dəryasıdı getsən dərinə,
Misrası qoxuyar çiçək yerinə,
Elə doğmadı ki, biri-birinə,
Nizami Gəcədi, Gəncə Nizami.

Yeddi gözəlindən biridi Göygöl,
Bu yurdun ən gözəl yeridi Göygöl,
Gəncənin gül-çiçək zəridi Göygöl,
Elə bil dəribdi qönçə Nizami.

İlhamı qaynayıb bulaqlar kimi,
Vüqarlı dayanıb şiş dağlar kimi,
Dərsini bilməyən uşaqlar kimi,
Atıb çox şairi küncə Nizami.

Səkkiz yüz yetmiş  il keçib yaşayır,
Dahilik meyini içib yaşayır,
İllərdi dünyadan köçüb, yaşayır,
Örnəkdi cavana, gəncə Nizami.

Bilib qiymətini hər ötən anın,
Sözünü yeməyib xaqanın, xanın,
Bakı paytaxtıdı Azərbaycanın,
Könüllər paytaxtı Gəncə, Nizami.

Minbir sınaq eylə, yüz çək şairi,
Əyməz hər imtahan, hər yük şairi,
Sevgin, bu dünyanın böyük şairi,
Məncə, Nizamidi, məncə, Nizami.

## ALLAHU ƏKBƏR DEYİR

Həmişə ehtiyacda, baş açıq, ayaq yalın,
İçində hərlənirik gör neçə qeylu-qalın,
Önündə aciz qalıb hamı çətin sualın,
Bilməyəndə, biləndə Allahu Əkbər deyir.

Dedi babalarımız susamayın bu qana,
Bir eşidən olmadı, getdilər yana-yana,
Silahını tuşlayıb müsəlman, müsəlmana,
Öldürəndə, öləndə Allahu Əkbər deyir.

Namərdi vəsf eləyir, mərdə gülür adamlar,
Xeyirdə gözü yaşlı, şərdə gülür adamlar,
Sevincinə yas tutub, dərdə gülür adamlar,
Ağlayanda, güləndə Allahu Əkbər deyir.

Qarşısına çıxanı anında xar eləyir,
Fələk olub dünyanı başıma dar eləyir,
Oturub iştah ilə qanan nahar eləyir,
Əllərini siləndə Allahu Əkbər deyir.

Allaha tərif deyir, Peyğəmbəri dost bilir,
Bəndəyə yaxşılığı Allahına qəsd bilir,
Gizlində vurmaq üçün neçə-neçə tost bilir,
Namazını qılanda Allahu Əkbər deyir.

## SƏRHƏDÇİ ƏSGƏR

Sərhədçi əsgərə yayda, baharda,
Eynidi payızın dumanı, sisi.
Keşikdə dayanar boranda, qarda,
İsidər qəlbini Vətən sevgisi.

Sərhəddən başlanır Vətən bilir o,
Xeyirə yol açıq keçə bilməz şər.
Gözlərində sevgi, könlündə Vətən,
Qoruyur Vətəni Sərhədçi əsgər.

Yadına düşəndə sevdiyi gözəl,
Gözləri yol çəkir görüş yerinə.
Tikanlı məftil tək kirpiklərini,
Çəkir Vətəninin sərhədlərinə.

Bir an da, sərhədi qoymaz o, gözdən,
Olsa gün-günorta, ya gecə yarı.
Dünən məktub alıb sevdiyi qızdan,
Yazır çox yaraşır yaşıl paltarı.

Yoxdur bu dünyada sənə tay Vətən,
Borcumu ödəyəm əməllərimlə.
Sən mənim gözümsən deyir, ay Vətən,
Səni qoruyaram kirpiklərimlə.

## İKİNCİ ADDIM

Bəxti gətirməyib, fələk əyənin,
Üzündə minillik ağrı-acı var.
Birinci addımda səhv eləyənin,
İkinci addıma ehtiyacı var.

Birinci atılan ilk addım ki var,
Hədəfə birinci tuşlanan oxdur.
Birinci addımda büdrəmək olar,
Hətta yıxılmaq da qorxusu yoxdur.

Həsrəti ən uzaq səfərdə daddım,
Sevincin müjdəsi ayaq səsidir.
Həyatda atılan birinci addım,
Döyüşə hazırlıq mərhələsidir.

Yaxıb könlümüzü kül elədilər,
İkinci addımın nə idi adı.
Birinci addımda güllələdilər,
Mikayıl Müşfiqi, Əhməd Cavadı.

Ayaq da ağrısın dizdə tutaq ki,
Heç zaman ağrıyan ürək olmasın.
Birinci addımı elə ataq ki,
İkinci addıma gərək olmasın.

## GƏNCƏ

Gözəldi yurdumun hər bir guəsi,
Könüllər oxşayan gözəli Gəncə.
Nağıllar aləmi, sehirli şəhər,
Şirin arzuların əzəli Gəncə.

İşığı bərq vurar Kəpəzdə qarın,
Göy gölü oxşayar meh narın-narın,
Vətənimi qucan qoşa qolların,
Bir əli Bakıdı, bir əli Gəncə.

Sinəndən qopmasın heç vaxt aman-ah,
Üstünə açılsın xeyirli sabah,
Gəncənin taleyin tapşırma Allah,
Kəmağıl qocaya, nə dəli gəncə.

## ÖMÜRDÜ

Gənclik çiçəkdi, güldü,
Qocalıq aydı, ildi,
Həyat avtomobildi,
Yanacağı ömürdü.

Əvvəl bilməz sağ-solun,
Sonra sızıldar qolu,
Əzrail gələn yolun,
Duracağı ömürdü.

Gəz göylərin hər qatın,
Dadın çıxar həyatın,
Vaxt göstərən saatın,
Quracağı ömürdü.

Seç qızılın, al alın,
Ərşi gəzsin xəyalın,
Hər verilən sualın,
Soracağı ömürdü.

## DÜŞÜR

*"Yadından çıxmışam ana vətənin*
*Gərək barmağına sap bağlayaydım"*
*Məmməd İsmayıl*

Vətənin acısın biz çəkirik, biz
Acı görməyənə sədəf, dürr düşür.
Bircə damlasını qıymayır, bizə,
Kimə Araz düşür, kimə Kür düşür.

Axı yarandığım günə nə deyim,
Qəm üstə köklənib yaralı neyim,



■ Dayandur Sevgin

Uğursuz şeirdi mənim taleyim,
Ya duyğu çatışmır, ya fikir düşür.

Nə deyim bu qanlı fələyə, Dədə,
Yol açır hər dürlü kələyə Dədə,
Dovşana qurulan tələyə, Dədə,
Möcüzə olanda, gəlib şir düşür.

Sənə yalvarıram, haçandan sənə,
Bilirsən bağlıyam mən candan sənə,
Sitəmlər verdiyin insandan sənə,
Tanrım özün söylə gör, zikir düşür?

Ədalət istədim, ədalət Haqdan,
Odu var eləyən hər şeyi yoxdan,
Narazı olsam da taledən, baxtdan,
Dilimdən Allaha çox şükür düşür.

Dilini bilsəm də qayanın, daşın,
Heç vaxt ayrılmadı bəladan başım,
Kiminə ev gəlir, kiminə maşın,
Dayandur Sevginə təşəkkür düşür.

## BAX

Əllidoqquz da getdi,
Yetişən altmışa bax.
Yazdan, yaydan xəbər yox
Gələn soyuq qışa bax.

Var olmağa adı yox,
İsinməyə odu yox,
Uçmağa qanadı yox,
Baxta düşən quşa bax.

Gizlənmə xəndəyində,
İnsaf yox xan, bəyində,
Mən çiçək istəyində,
Göydən gələn daşa bax.

Yolum olub dağ-dərə,
Ümid yoxdu səhərə,
Ürəyimdə qəhərə,
Yanağımda yaşa bax.

## MƏN DƏRDİN İÇİNDƏ DƏ SEVİNC TAPA BİLƏNƏM

*Bir bədxahıma*

Qara yaxma gəl mənə, özün şərə düşərsən,
Allahdan qismətdirsə mənim payım gələcək.
Mənbəyi ürəyimidi, mənsəbi yer üzüdü,
Dönüb Kürə, Araza axar çayım gələcək.

Zəhərin kəsərsizdi lap əfi olsan belə,
Dönüb xallı gürzəyə, yüz yerdən çalsan belə,
Qırx arşın bir quyunun dibində olsam belə,
Yenə də Koroğlu tək nərəm, qıyım gələcək.

Alnımı turşaltmaram yüz kədərə bələnəm,
Sonuncu tikəmi də dost-tanışla bölənəm,
Mən dərdin içində də sevinc tapa bilənəm,
Vay sənin ününədi, gözlə - vayın gələcək.

## DOST

Çiçəyi budaqda, gül göyün üstə,
Arı nəğməsidi gül neyin üstə,
Gərək inciməsin hər şeyin üstə,
Gərək nəzər salsın imkanına DOST.

Haqq səninlə olar düz yolun olsa,
Adın bəlli olar öz yolun olsa,
Ya ağlın işləsə, ya pulun olsa,
Gəlib yığışacaq dörd yanına DOST.

Dözəsən düşəndə işin çətinə,
Tanrı yardımçıdı məğrur-mətinə,
Sevgin cavab verməxəyanətinə,
Bir gün bələnəcək al qanına DOST.